# İctimai iaşə obyektlərində davranış qaydaları



Kafe və restorana müştəri maska ilə daxil olmalıdır.




İctimai iaşə obyekti daxilində ayaq yoluna (WC) və ya tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə getmək üçün masadan ayrılarkən maskadan istifadə mütləqdir.



Maska masa arxasına keçərkən çıxarıla bilər.



Kafe və restoranlarda açıq bufetdən istifadə etmək qadağandır.

# İctimai nəqliyyatda davranış qaydaları



- Avtobuslarda sərnişinlər oturacaqlarda məsafə saxlamalı və maskadan istifadə etməlidirlər.



- Taksilərdə sərnişinlər yalnız arxa oturacaqda əyləşərək maskadan istifadə etməlidirlər. Ödəniş edərkən əl təması olmamalıdır.

# Metro və dəmiryolu nəqliyyatında davranış qaydaları



- Metro və dəmiryolu nəqliyyatında oturacaqlar arası məsafə saxlanılmalı və sərnişinlər maskadan istifadə etməlidirlər.

# Hava nəqliyyatında davranış qaydaları



- Hava nəqliyyatında sərnişinlər 1,5-2 metr məsafə saxlamalı və maskadan istifadə etməlidirlər.

# Market və ərzaq mağazalarında davranış qaydaları



- Market və ərzaq mağazalarına gedərkən maskadan istifadə olunmalıdır.

# Kənd təsərrüfatı məhsulları bazarında davranış qaydaları



- Bazara gedərkən maskadan istifadə olunmalıdır.

# “Mall”-larda davranış qaydaları




- “Mall”-lara müştəri maska ilə daxil olmalıdır və alış-veriş zamanı maskadan istifadə zəruridir.

# Dövlət orqanı və qurumlarının binalarında vətəndaşların qəbulu və vətəndaşlara xidmət üçün nəzərdə tutulan sahələrdə davranış qaydaları



- Dövlət orqanı və qurumlarının binalarında vətəndaşların qəbulu və vətəndaşlara xidmət üçün nəzərdə tutulan sahələrdə 1,5-2 metr məsafə saxlanılmalı və maskadan istifadə edilməlidir.

# Fiziki və hüquqi şəxslərə məxsus binalarda və açıq sahəli ofislərdə, müştərilərə xidmət göstərilməsi üçün istifadə olunan sahələrdə və istehsal sahələrində davranış qaydaları





- Fiziki və hüquqi şəxslərə məxsus binalarda və açıq sahəli ofislərdə, müştərilərə xidmət göstərilməsi üçün istifadə edilən sahələrdə və istehsal sahələrində 1,5-2 metr məsafə saxlanılmalı və maskadan istifadə edilməlidir.

# Dini ibadət yerlərində davranış qaydaları



- Dini ibadət yerlərində 1,5-2 metr məsafə saxlanılmalı və maskadan istifadə edilməlidir.

# Tarix və mədəniyyət abidələri hesab edilən qapalı məkanlarda davranış qaydaları



- Tarix və mədəniyyət abidələri hesab edilən qapalı məkanlarda ziyarətçillər və bələdçilər maskadan istifadə etməlidirlər.

# Səhiyyə müəssələrində davranış qaydaları



- Səhiyyə müəssələrində vətəndaşların qəbulu və vətəndaşlara xidmət üçün nəzərdə tutulan sahələrdə 1,5-2 metr məsafə saxlanılmalı və maskadan istifadə edilməlidir.

# Turizm müəssələrində, o cümlədən otellərdə davranış qaydaları



- Turizm müəssələrində, o cümlədən otellərdə 1,5-2 metr məsafə saxlanılmalı və maskadan istifadə edilməlidir.

# Muzeylərdə ziyarətçilərin və bələdçilərin davranış qaydaları



- Muzeylərdə ziyarətçilər və bələdçilər 1,5-2 metr məsafə saxlamalı və maskadan istifadə etməlidirlər.

# Kinoteatr və teatrlarda davranış qaydaları



- Kinoteatr və teatrlarda oturacaqlar arası məsafə saxlanılmalı və tamaşaçılar maskadan istifadə etməlidirlər.



# İctimai nəqliyyat dayanacaqlarında davranış qaydaları



İctimai nəqliyyat dayanacaqlarında 1,5-2 metr məsafə saxlanılmalı və maskadan istifadə edilməlidir.

# Növbədə davranış qaydaları



- Növbə gözləyərkən 1,5-2 metr məsafə saxlanılmalı və maskadan istifadə edilməlidir.

# Bilet kassaları qarşısında növbə gözləyərkən davranış qaydaları



Bilet kassaları qarşısında növbə gözləyərkən 1,5-2 metr məsafə saxlanılmalı və maskadan istifadə edilməlidir.

# Ödəniş terminalları və bankomatlar qarşısında növbə gözləyərkən davranış qaydaları




Ödəniş terminalları və bankomatlar qarşısında növbə gözləyərkən 1,5-2 metr məsafə saxlanılmalı və maskadan istifadə edilməlidir.

# Açıq havada olan ictimai yerlərdə davranış qaydaları



- İnsanların toplaşdığı və yaxın təmasda olduğu açıq havadakı ictimai yerlərdə olarkən 1,5-2 metr məsafə saxlanılmaq imkanı olmadığı halda maskadan istifadə edilməlidir.

# Bulvar və parklarda davranış qaydaları



- Bulvar və parklarda yürüyüş edərkən 1,5-2 metr məsafə saxlanılmalıdır.

# Çimərliklər, üzgüçülük hovuzları və akvaparklarda davranış qaydaları





- Çimərliklər, üzgüçülük hovuzları və akvaparklarda 2 metr məsafə saxlanılmalıdır. Maskadan istifadə məcburi deyil.